# ALİ BAŞ KOMANDAN VƏ ZƏFƏRƏ GEDƏN YOL

44 günlük Vətən müharibəsi dövründə Ali baş Komandanımızın rəhbərliyi altında Azərbaycan ordusu işğal olunmuş əraziləri düşməndən azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Hərb tariximizə "Dəmir yumruq", Vətən müharibəsi, İkinci Qarabağ müharibəsi adları altında daxil olan və qələbəmizin təminatçısı Azərbaycan ordusunun qəhrəmanlığını sərgiləyən 44 günlük müharibə bir daha sübut etdi ki, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var. Əlbəttə, bu güc, qüvvə ağıllı sərkərdənin rəhbərliyi altında reallaşır. Prezident İlham Əliyevin əslində illərin əməyi, təcrübəsi sayəsində qətrə-qətrə yığdığı, əldə etdiyi nailiyyətləri qələbəmizin təminatçısı oldu. Bu müharibə və qazandığımız qələbə Azərbaycan dövlətinin etibarlı əllərdə olduğunu bir daha dünyaya bəyan etdi. İstər hərb sahəsində, istərsə də diplomatik sahədə Prezident İlham Əliyevin göstərdiyi şücaət Odlar ölkəsini bütün dünyada məşhurlaşdırdı. Hamı bizim dövlətin rəşadətli, şanlı ordusundan, siyasəti ilə düşməni məhv edən Ali Baş Komandanından və yumruq kimi birləşən xalqından bəhs etdi. Hələ bundan sonra bu qəhrəmanlıq salnamələri haqqında çox danışılacaq: əsərlər yazılacaq, dünya hərb tarixində bizim ordunun taktikası öyrəniləcək.

2020-ci il noyabrın 8-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər Xiyabanından xalqa müraciətində Şuşa şəhərinin işğaldan azad olunduğunu elan etdi. Həmin gün xalqımızın tarixinə qızıl hərflərlə - ?Qələbə Günü - kimi yazıldı.

Cənab Prezident xalqa müraciətində demişdir: - İkinci Qarabağ müharibəsi xalqımız üçün Vətən müharibəsidir ?. Azərbaycan ordusu döyüş meydanında tarixi ədaləti bərpa etdi. Beş il ərzində işğal olunmuş, 27 il ərzində güclü müdafiə istehkam sistemi yaradılmış ərazilərin mühüm bir hissəsinin qısa müddət ərzində azad olunması Azərbaycan Ordusunun qüdrətinin göstəricisidir.

Şanlı Qələbənin təqdimatı dekabrın 10-da Bakıda keçirildi.Möhtəşəm parad ölkəmizin qüdrətini , dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi qələbəsini bütün dünyaya nümayiş etdirdi. Bu, eyni zamanda, ərazi bütövlüyümüzün bərpasının təqdimatı idi. Həmçinin Şuşa azad edildikdən sonra Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılan Zəfər bayrağı da parada gətirilmişdi.

Məhz dövlətimizin, Prezident İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun gücü ,qüdrəti, xalqımızın birliyi ,həmrəyliyi sayəsində qazanılan Şanlı Qələbədən sonra qələbəmizin təqdimatı olan Zəfər paradı işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə bir sıra mesajları çatdırdı.

Qələbə sevincimiz , Zəfər Günümüz çoxəsrlik tariximizin ən yaddaqalan səhifəsi kimi yazıldı.Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş Zəfər paradında 150-dək hərbi texnika,həmçinin müharibə zamanı qənimət kimi ələ keçirilmiş Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnikanın bir qismi nümayiş etdirildi. Azərbaycan bu qələbəsi ilə dünyaya sübut etdi ki, onun uğrunda ölməyi bacaran, azadlığı uğrunda qanını tökməyə hazır olan övladları var. Vətən müharibəsində qazanılan Böyük Qələbə Azərbaycan Prezidentinin Qarabağ uğrunda zəfərlərinin salnaməsidir, parlaq səhifəsidir!

Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında böyük şücaət göstərərək bir millətin taleyini dəyişdirdi. Tarix yazıldı, məğlubiyyət təqvimləri sıfırlandı, təqvimə Zəfər Günü salındı! Ordumuz ən yeni tariximizi qan və silahla yazdı, torpaqlarımızı düşməndən təmizlədi, işğalçı Ermənistana ,onun havadarlarına və dünya ermənizminə böyük unudulmayacaq bir dərs verdi.Erməniçilik 130 il ərzində hansı nöqtəyə gəlmişdirsə, həmin nöqtələrin əksəriyyətindən geri püskürdüldü.

Azərbaycan Prezidenti illərlə öz millətini, xüsusən də, gəncliyi vətənpərvərlik ruhu ilə, ideya və şüarları ilə ayaqda tutmağa çalışdı. 12 illik bir hazırlıq Vətən müharibəsi modeli ilə Azərbaycanın işğaldakı torpaqlarının azad edilməsi ilə nəticələndi. Dağlıq Qarabağın statusu ləğv edildi: Ermənistan ordusu və onun təcavüzə dəstək verən xalqı darmadağın edildi. BMT və ATƏT-in həll edə bilmədiyi bir konflikti yeni nəsil zabit və əsgərləri ilə ordumuz, Azərbaycan xalqı ilə birlikdə prezdent İlham Əliyev həll etdi. Bu gün biz məhz bu əlamətdar prosesi Zəfər Günü ilə özətləyərək Qələbə Paradı kimi qeyd edirik.

Bu gün Ali Baş Komandanımız Qarabağ uğrunda gedən döyüşlərdə rəşadət göstərmiş yüzlərlə zabit və əsgərlərimizi təltif etmişdir. Deməli, Prezident İlham Əliyev qanı bahasına torpaqlarımızı işğaldan azad etmiş qəhrəman oğullarımızı diqqətdən kənarda saxlamamışdır. Biz də bu dəstəkdən ilhamlanmalı, yumruq kimi dövlətimizin, ordumuzun ətrafında birləşməli, düşmənin gözünü məhz bu birliklə qorxutmalıyıq! Dövlətimiz müharibə iştirakçılarının qəhrəmanlığını layiqincə qiymətləndirmiş, onları müxtəlif orden və medallarla təltif etmişdir: "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Zəfər", "Qarabağ", "Vətənə xidmətə görə", 1, 2 və 3-cü dərəcəli, "Rəşadət", "Azərbaycan Bayrağı" ordenləri, habelə "Vətən uğrunda", "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" kimi medallar müharibə iştirakçılarına və şəhid ailələrinə təqdim olunmuşdur. Dövlət tərəfindən keçirilən tədbirlərə əlavə dəstək kimi vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün "Yaşat" Fondu yaradılmışdır.

Bu gün bu haqq savaşından düz beş il keçir. Və heç bir müharibə qansız, qadasız, itkisiz olmur. 30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımız məhz şəhidlərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Ancaq dövlətimiz, xalqımız şəhidlərimizi unutmadı, onların yaxınlarına qayğısını əsirgəmədi. Bu gün yüzlərlə şəhid ailələrinə göstərilən sonsuz qayğı, maddi və mənəvi dəstək diqqətdən, hörmətdən xəbər verir. Belə ali hərəkət isə Azərbaycan kimi millətə, onun Ali Baş Komandanına məxsus ola bilər.



*Vəsilə İMANOVA,*
*Azərbaycan Dovlet pedaqoji Universitetinin nəzdində Azərbaycan Dovlət pedaqoji kolleci*
*Pedaqoğika - psixologiya fənn birləşməsinin müəllimi*